## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2016-cı İLİN İYUL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Sirt Yengicə kəndi | 05.07.2016 | İcra nümayəndəliyi, saat $11^{00}$ |
| Məlikli kəndi | 12.07.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Məmmədağalı kəndi | 19.07.2016 | Kənd məktəbi, saat $11^{00}$ |
| Nohurqışlaq kəndi | 26.07.2016 | Kənd məktəbi, saat $11^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# 14 iyul 1969-cu ildən başlanan intibah və inkişaf yolu uğurla davam etdirilir

**(Əvvəli 4-cü səhifədə).**

Yalnız siyasi müdrikliyi, polad iradəsi, dövləti idarəetmə bacarığı, istedadı sayəsində o, qarşıya çıxan bütün manеələri dəf etmiş, xalqı düşdüyü bəlalardan çıxarıb qoruya bilmişdir. Böyük öndər müasir dünyanın ziddiyyətli reallıqlarına dərindən bələd olan bir siyasi xadim kimi, ilk növbədə beynəlxalq müstəvidə əlaqələrin qurulmasına, beləliklə də dünya dövlətlərinin diqqətini iqtisadi cəhətdən əlverişli olan Azərbaycana yönəldilməsinə nail olmuşdur. Onun hakimiyyətə gəlişi müstəqil respublikamızda yeni bir tarixi mərhələnin əsasını qoydu. Ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı.

Ümummilli liderin şəxsi təşəbbüsləri, gecəli-gündüzlü zəhməti sayəsində ölkədə demokratik islahatlara start verildi. Çünki bunlarsız dünyəvi, hüquqi, demokratik dövlət qurmaq mümkün deyildi.

1995-ci ildə müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul edilib. Həmin ildə demokratik şəraitdə parlament seçkiləri keçirildi.

Bazar iqtisadiyyatı mexanizmi ön plana çəkilmiş, mühüm dövlət proqramları qəbul edilmiş, bütün sahələrlə bağlı qanunvericilik bazası hazırlanıb qəbul edilmişdir.

Bu gün hər bir Azərbaycan vətəndaşı Heydər Əliyevi xatırlayır və iftixarla deyir ki, bəli, ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin xilaskarı və memarı kimi qəlbimizdə daim yaşayır və əziz tutulur.

Bu gün yaradıcısı ulu öndər Heydər Əliyev olan, sıralarında Vətənini, xalqını, torpağını sevən insanların olduğu bir partiya var—Yeni Azərbaycan Partiyası. Bu partiya zamanın ən çətin sınaqlarından üzüağ çıxdı, dünənin partiyası olduğunu təsdiqlədi, günümüzün uğurlarına imza atdı-bu günün partiyası kimi sevildi, rəğbət qazandı, bütün fəaliyyəti ilə daha xoşbəxt gələcəyi hədəfləyib. İnamla demək olar ki, YAP həm də sabahın partiyasıdır.

Təqdirəlayiq haldır ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi strategiya son illərdə onun layiqli davamçısı və varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycan bütün sahələrdə çox böyük inkişafa nail olmuşdur.

Siyasət aləmində öz sözünü deyən, beynəlxalq arenada böyük nüfuz qazanan dövlətimizin başçısı cənab İlham Əliyev ölkəmizin daha da qüdrətlənməsi naminə əzmlə çalışır.

Bu gün siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrdə qazanılan bütün nailiyyətlərin mənbəyi böyük siyasətçi və dahi şəxsiyyət Heydər Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycana rəhbər seçildiyi vaxtdan başlayıb. Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə daim yaşayacaqdır. Heydər Əliyev bu əbədiliyi xalqa sevgisi və xalqın sevgisi ilə qazanıb.

**Qüdrət SƏMƏDOV.**

# Mobil telefon rabitəsi daha çox gəlir gətirir

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-may ayları ərzində informasiya və rabitə müəssisələri 644,4 milyon manatlıq xidmət göstərib.

Ötən ilin eyni dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 11,1 faiz artıb. Bu sahədə əldə edilən gəlirlərin 81,1 faizi qeyri-dövlət sektorunun payına düşüb. Xidmətlərdən əldə edilən gəlirin yüksək hissəsi mobil telefon rabitəsinə məxsusdur. Belə ki, hesabat dövründə xidmətlərdən əldə edilən gəlirin 51,1 faizi və ya 323,1 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşıb.

**"Azərbaycan".**

*2 iyul—Azərbaycan Polisi Günüdür*

# Azərbaycan polisi xalqın və dövlətin etibarlı dayağıdır

Azərbaycan polisinin tarixi çox da uzaq deyil. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan az sonra, Nazirlər Şurasının 1918-ci il 2 iyul tarixli sərəncamı ilə Daxili İşlər Nazirliyi tərkibində müstəqil Azərbaycanın polis orqanları yaradıldı. Azərbaycan polisi yarandığı ilk gündən xalqın və dövlətin mənafeyinə ləyaqətlə xidmət etdi, asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri ləyaqətlə yerinə yetirdi.

Təəssüf ki, cəmi 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra bolşevik diktaturası milli polisi ləğv etdi. Əvəzində isə «milis» adlandırılan bir qurum yaradıldı. Sovet milisinin vəzifəsi insanların təhlükəsizliyini qorumaq, cinayətkarlığa qarşı mübarizə aparmaqdan daha çox bolşevik rejiminin qorunmasına, azad fikirli insanların təqib və həbs edilməsinə yönəldilmişdi. Sovet milisi mövcud olduğu 70 il ərzində dövlətin repressiya aparatı rolunu oynamışdır. Amma sovetlər birliyi dövründə Azərbaycan milisi rəşadətlərlə zəngin bir yol keçərək, böyük təcrübə qazanmış, təşkilati cəhətdən möhkəmlənmişdir.

Azərbaycan yenidən müstəqilliyə qovuşduqdan sonra polis adı bərpa olundu, onun funksiya və vəzifələri dəqiqləşdirildi. Azərbaycan polisi Birinci Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Daxili işlər orqanlarının və daxili qoşunların siyasi heyətinin 931 nəfəri bu müharibədə şəhid olmuşdur. Polisin sıralarında xeyli sayda «Milli Qəhrəman» adına, habelə orden və medallarla təltifə layiq görülənlər vardır.

Bütün bunlarla bərabər polisin şanlı tarixinin ən mühüm mərhələləri xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü il iyun ayının 15-də xalqın istək və tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin başladığı böyük quruculuq işləri digər sahələrdə olduğu kimi, daxili işlər orqanlarının fəaliyyətində də öz əksini tapdı. Ulu öndərin hakimiyyətə qayıdışından sonra hüquq-mühafizə orqanlarının, o cümlədən daxili işlər orqanlarının əsaslı keyfiyyət dəyişikliklərinin möhkəm təməli qoyuldu, qanunçuluq və dövlətçilik prinsipləri ön plana çəkildi, ölkədəki peşəkar kadrların potensialı gücləndirildi, ölkədə baş alıb gedən hərc-mərclik, özbaşnalıqlara qarşı qətiyyətli mübarizəyə start verildi. Elə bunun müsbət nəticəsidir ki, qısa zaman kəsiyində cinayətkarlığın artan dinamikasının qarşısı alındı, respublikada tuğyan edən cinayətkarlığa, ictimai-siyasi sabitlik üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədirlər həyata kençirildi. Tezliklə ölkədə sabitlik bərqərar edildi.

Hazırda respublikanın daxili işlər orqanlarının əməkdaşları Heydər Əliyevin və onun siyasi məktəbinin layiqli davamçısı cənab Prezidentimiz İlham Əliyevin tövsiyə və tapşırıqlarını ləyaqətlə yerinə yetirir, ölkədə kriminogen durumun nəzarətə götürməsi və ictimai asayişin yaradılması, vətəndaşların hüquqlarının qorunması istiqamətində mühüm nailiyyətlər qazanmışlar.

Azərbaycan polisinin bir qolu və mübariz hissəsi olan Qəbələ polisi də böyük və şanlı tarixə malikdir. İstər Sovetlər birliyi dövrundə, istərsə də müstəqillik illərində Qəbələ Rayon Polis şöbəsinin əməkdaşları Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, vətəndaşların təhlükəsizliyinin qorunmasında daim fəal və fədakar mövqe tutmuşlar. Rayonun asayiş keşikçiləri bu gün də üzərinə düşən vəzifələri inamla və şərəflə yerinə yetirir, vətəndaşların rahat və təhlükəsiz yaşayışının təminatı üçün bütün zəruri profilaktik tədbirləri həyata keçirirlər. Rayon polis şöbəsinin əməkdaşları əvvəlki illərdə əldə edilən nailiyyətlərin 2016-cı ilin birinci yarısında da qorunub saxlanılmasına nail olmuşlar.

Cari ilin ötən ayları ərzində rayonda cinayətkarlığa qarşı aparılan mübarizənin vəziyyətinə nəzər salsaq həqiqətən də polis əməkdaşlarının fəaliyyətindən danışa bilərik. Hər şeydən əvvəl burada uçot-qeydiyyat intizamı möhkəmləndirilmiş, cinayət və hadisələr barədə daxil olan məlumatların qəbulu və onlara ədalətli baxılması işi yaxşılaşdırılmışdır.

**(Ardı 6-cı səhifədə).**